# Təhsil müəssisələrində mütaliə ilə bağlı vəziyyət necədir?



**Məlum olduğu kimi, 2014-cü ilin dekabrında Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı əmr imzalamışdır. Əmrdə şagirdlərin mütaliəsi işinin təşkilindəki təcrübədə sınaqdan çıxmış ənənələri bərpa etmək, onların mütaliəyə həvəsini daha da gücləndirmək və mütaliə vərdişlərini inkişaf etdirmək təhsil sahəsində prioritet vəzifələrdən biri hesab olunur. "Azərbaycan müəllimi" qəzeti olaraq biz də bu məsələni daim diqqətdə saxlayır, əmrin icrası ilə bağlı keçirilən tədbirləri işıqlandırır, müvafiq istiqamətverici yazılar dərc edirik. Əmrin imzalandığı vaxtdan artıq xeyli müddət keçir. Bəs ötən müddət ərzində bu sahədə nə kimi irəliləyişlər olub? Şagirdlərdə mütaliəyə həvəs artıbmı? Bundan başqa ali məktəblərdə vəziyyət necədir? Suallarımıza cavab tapmaq məqsədilə paytaxtın bir sıra təhsil müəssisələrində olduq. Məsələ ilə bağlı kitabxanada çalışanlar və şagirdlərlə söhbətləşdik.**

**Mətanət Salmanova,**
*236 nömrəli tam orta məktəbin kitabxana müdiri:*

- Etiraf edək ki, ötən əsrlə müqayisədə şagirdlərin kitaba, mütaliəyə həvəsi çox azalıb. Onlar bir o qədər də dərk etmirlər ki, bəşəriyyətin söz sənəti xəzinəsinə incilər bəxş etmiş Azərbaycan ədəbiyyatının, eləcə də dünya ədəbiyyatının humanizm ruhlu seçmə nümunələri onları mütaliə edən hər bir şəxs üçün əsl həyat məktəbidir. Düşünürəm ki, son 2 ildə əvvəlki illərlə müqayisədə bir az canlanma özünü göstərir. Təbii ki, bu canlanmada təhsil nazirinin mütaliə vərdişlərinin formalaşdırılması ilə bağlı əmrinin xüsusi rolu var. Lakin bütün bunlara baxmayaraq yenə də məsələ ilə bağlı vəziyyət tam ürəkaçan deyil. Ən böyük problem yuxarı sinif şagirdlərinin kitaba həvəslərinin olmamasıdır. Onlar bunu dərslərinin çoxluğu və qəbul imtahanına hazırlıqla bağlı vaxtların məhdud olması ilə əlaqələndirirlər. Bu baxımdan kitabxanamıza daha çox 3-8-ci sinif uşaqları maraq göstərir. Onlar əsasən dastan, nağıl və ensiklopediya kitablarını oxuyurlar. Nadir hallarda dünya ədəbiyyatına maraq göstərən şagirdlər də olur. Detektiv əsərlərə də şagirdlər çox maraq göstərirlər. Lakin onların istədikləri detektiv əsərlər bizim kitabxanamızda yoxdur. Şagirdlər daha çox Elxan Elatlının detektiv əsərlərini istəyirlər.

Kitabxanamızın daimi üzvləri də var. Onlar həqiqətən də kitaba hərisliklə yanaşırlar. Hazırda 120 kitabımız şagirdlər tərəfindən istifadədir. Təbliğatla bağlı ciddi işlər aparırıq. Bundan başqa, məktəbdə mütaliə ilə bağlı 12 nəfərdən ibarət şura fəaliyyət göstərir. Bu şura tərəfindən də kitabsevərlərlə söhbətlər aparılır, müxtəlif tədbirlər keçirilir.

Bilirsiniz, bu məsələdə müəllimlərin üzərinə böyük vəzifə düşür. Əsas da Azərbaycan dili və ədəbiyyat müəllimlərinin. Elə müəllimlər var ki, onlar tapşırıq verərkən bədii ədəbiyyatdan istifadə etməyi tövsiyə edir. Belə olan təqdirdə kitabxanaya daha çox şagird müraciət edir.

**Sevinc Mirzəliyeva,**
*60 nömrəli tam orta məktəbin kitabxanaçısı:*

- Bilirsiniz, şagirdlərdə mütaliə vərdişlərinin yaradılması üçün onların mütaliəyə təşviq olunması yenilik deyil. Biz müəllimlərlə birgə bu məsələnin vacibliyini daim şagirdlərə çatdırırıq. Hazırda məqsəd yaranmış zəifliyi aradan qaldırmaq və mövcud ənənələri bərpa etməkdir. Hamımıza məlumdur ki, bədii əsərlər vasitəsilə bizim milli mənəvi irsimiz, adətlərimiz, qəhrəmanlıq və vətənpərvərlik ənənələrimiz gələcək nəsillərə çatdırılır, eyni zamanda xarici ölkə ədəbiyyatının köməyilə başqa xalqların adət-ənənəsi, irsi, inkişafı ilə müqayisə imkanı yaranır. Bütün bunları nəzərə aldıqda görürük ki, mütaliənin rolu danılmazdır. Lakin bütün bunlara baxmayaraq şagirdlərin kitaba meyli, marağı bir o qədər də yaxşı deyil. Yuxarı sinif şagirdləri vaxtlarının olmadığını bəhanə edərək kitab götürmürlər. Lakin aşağı siniflərdə oxuyan uşaqlar kitablardan istifadə edirlər. Onlar daha çox nağıllara, dastanlara üstünlük verirlər. Bizim şair və yazıçılara, dünya ədəbiyyatına da müraciət edən şagirdlərimiz var. Hazırda 100-dən çox kitabımız istifadədir. Bundan başqa, kitabxanamızda qiraət zalı da fəaliyyət göstərir. Elə kitablar var ki, onları evə aparmaq olmaz. Belə kitablardan şagirdlər kitabxanada istifadə edirlər. Müəllimlərdən də kitab götürənlər olur. Onlar daha çox metodik vəsaitlərdən istifadə edirlər. Fürsətdən istifadə edib demək istəyirəm ki, rus dilində ədəbiyyatlarla bağlı çətinliyimiz olur. Rus bölməsində oxuyan şagirdlər var ki, müxtəlif bədii ədəbiyyat istəyirlər, lakin həmin kitablar bizdə olmur.

**Azər Hüseynov,**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxana müdiri:*

- Çox vacib bir məsələyə toxunmusunuz. Tələbələr əsasən elmi kitablara maraq göstərirlər. Tapşırıqları yerinə yetirmək üçün bu kitablardan istifadə edirlər. Əslində buna məcburdurlar. Çünki oxumasalar qiymət də ala bilməzlər. Lakin buna baxmayaraq bədii kitablara da üstünlük verənlər var. Filologiya fakültəsinin tələbələri təbii ki, klassik və müasir Azərbaycan ədəbiyyatından, dünya ədəbiyyatından daha çox yararlanırlar. Lakin düşünürəm ki, bu, bir o qədər də yetərli deyil. Fikrimcə, günü-gündən qloballaşan dünyamızın müasir gəncliyi daha çox oxumalı, daha çox mütaliə etməlidir.

Onu da qeyd etmək yerinə düşər ki, son 2-3 ildə əvvəlki illərlə müqayisədə mütaliəyə həvəs artmaqdadır. Dünya ədəbiyyatına tələbələr daha çox üstünlük verirlər. Müəllimlərimiz də kitabxanaya tez-tez müraciət edirlər. Onlar həm bədii ədəbiyyata, həm də metodik kitablara üstünlük verirlər.

Nəzərə çatdırmaq istəyirəm ki, universitetimizin kitabxanasında gənclərin mütaliə etməsi üçün hər bir şərait mövcuddur. Bildiyiniz kimi, ölkə Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən çoxlu sayda kitablar latın qrafikası ilə yeni formatda, on minlərlə tirajla çap olundu. Bundan başqa, zəngin elektron kitabxana yaradıldı. Bu gün universitetin kitabxanası istər tədrislə bağlı elmi, istərsə də bədii kitablarla çox zəngindir.

**Nailə Mustafayeva,**
*Azərbaycan Memarlıq və İnşaat Universitetinin əsaslı kitabxanasının xidmət şöbəsinin müdiri:*

- Çox zəngin kitabxanamız var. Müasir standartlara cavab verən, geniş oxucu zalı olan kitabxanamız tələbələrin tam istifadəsindədir. Tələbələr əsasən elmi kitablara üstünlük verirlər. Hazırda çoxlu sayda elmi kitab istifadədədir. Bu da təbiidir. Çünki imtahanlara hazırlaşmaq üçün bu çox vacibdir. Lakin hazırlıq qrupunun, kollecin və birinci kursun tələbələrinin bəziləri bədii ədəbiyyata da maraq göstərirlər. Bu gün təxminən 60-70 bədii kitabımız oxucularımızdadır. Bu elə də yüksək göstərici deyil. Bəlkə də indi tələbələrin qış tətilinə çıxdığı vaxtlardır ona görə azdır. Ancaq tədris müddətində bu göstərici 25-30 faiz çox olur. Bir məsələni də nəzərə çatdırım ki, oxu zalımızdan tələbələr daha çox istifadə edir. Bir çox tələbə kitabı evə aparmaqdansa oxu zalında oxumağa üstünlük verir. Xarici tələbələrin kitablara marağı daha çoxdur. Düşünürəm ki, müasir gəncliyimiz mütaliə məsələsində bir az geridə qalır. Onlar bunu internetdə bütün informasiyaların olması ilə əsaslandırırlar.

**Nərmin Mahmudova,**
*236 nömrəli tam orta məktəbin IV sinif şagirdi:*

- Kitabları çox sevirəm. Tez-tez valideynimlə kitabxanaya gələrək oxuduğum kitabı verib, yenisini alıram. Nağıl kitablarını oxumağı xoşlayıram. Ən xoşuma gələn nağıllar isə "Ovçu Pirimin nağılları"dır. Bundan başqa, heyvanlar, sular, göllər haqqında əfsanələri də çox bəyənirəm. Oxuduğum nağılları balaca qardaşıma da danışıram. O da mənim kimi nağılları sevir.

**Səmra Qafarova,**
*236 nömrəli tam orta məktəbin IX sinif şagirdi:*

- Mən də mütəmadi olaraq kitabxanaya gedir, bədii ədəbiyyatla bağlı kitabları götürüb oxuyuram. Bundan başqa, ədəbiyyat dərsləri ilə bağlı tapşırıqları da yerinə yetirmək üçün xalq şairlərinin, yazıçıların kitablarını oxuyuram. Sonuncu dəfə oxuduğum kitab türk yazıçısı Yaşar Nuri Güntəkinin "Dodaqdan qəlbə" romanıdır. Yaşıdlarıma da çoxlu kitab oxumağı deyirəm. Həqiqətən də hər kitabı oxuyub qurtaranda insan mənəvi zənginlik tapır.

**Eldar Paşazadə,**
*60 nömrəli tam orta məktəbin IX sinif şagirdi*

- Dünya ədəbiyyatından Cek Londonun əsərini oxumuşam. Həmin əsər canavar ilə insanın mübarizəsindən bəhs edirdi. Çox maraqlı kitab idi. Bundan başqa, Azərbaycan ədəbiyyatından da bir sıra əsərlər oxumuşam. Məsələn, Həsən Seyidbəylinin əsərlərinə daha çox üstünlük verirəm. Ən çox isə detektiv janrda olan kitablara maraq göstərirəm. Bu janrda çoxlu sayda kitab oxumuşam. Məktəbdə müəllimlərim, evdə isə valideynlərim məndə uşaq yaşlarımdan kitaba həvəs yaradıblar. Yoldaşlarıma həmişə deyirəm ki, davamlı olaraq 2-3 kitab oxusanız artıq kitablardan əl çəkməyəcəksiniz.

**Gülər İsmayılova,**
*60 nömrəli tam orta məktəbin IX sinif şagirdi:*

- Məktəbin kitabxanasından "Dədə Qorqud", "Koroğlu" dastanlarını oxumuşam. İnternet vasitəsilə Dostoyevskinin "Cinayət və cəza" əsərini oxumuşam. Bundan başqa, - Yaşar Nuri Güntəkinin "Çalıquşu" romanını və digər əsərləri oxumuşam. Düşünürəm ki, hər bir əsəri oxuduqca təfəkkürüm formalaşır, dünyagörüşüm daha da artır.

*Müsahiblərimizlə söhbətimizdən də məlum oldu ki, mütaliəyə maraq kütləvi şəkildə olmasa da əvvəlki illərlə müqayisədə bu məsələdə müəyyən qədər irəliləyiş hiss olunmaqdadır.*

**Niyazi RƏHİMOV,**
*"Azərbaycan müəllimi"*